# Məxfilik Siyasəti

## Ümumi müddəalar

- İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyinin (bundan sonra – Agentlik) rəsmi internet informasiya ehtiyatı “icta.az”ın istifadəçilərinin şəxsi məlumatlarının məxfiliyinin qorunmasına böyük önəm verilir. Bu Məxfilik Siyasəti (bundan sonra – Siyasət), “icta.az” internet informasiya ehtiyatına daxil olduğunuz zaman toplanan şəxsi məlumatların işlənməsi və qorunması ilə bağlı əsas prinsipləri müəyyən edir. İnternet informasiya ehtiyatından istifadə etməklə, bu Siyasətdə göstərilən şərtləri qəbul etmiş olursunuz.

## Toplanan məlumatlar

- Şəxsi məlumatlar: İstifadəçi könüllü şəkildə, həmçinin əlaqə formalarını doldurarkən, öz ad, soyad, e-poçt ünvanı, telefon nömrəsi kimi məlumatları təqdim edə bilər.
- Texniki məlumatlar: İnternet informasiya ehtiyatına giriş zamanı avtomatik olaraq IP ünvanı, brauzer tipi, cihaz növü, ziyarət vaxtı və müddəti, “icta.az” internet informasiya ehtiyatı üzrə baxılan səhifələr və digər analitik məlumatlar toplanır.

## Məlumatların istifadəsi

- Əlaqə və dəstək xidməti: İstifadəçi suallarına cavab vermək və texniki dəstək göstərmək.
- Saytın inkişafı: Saytın funksionallığını və istifadəçi təcrübəsini yaxşılaşdırmaq.
- Qanuni öhdəliklər: Qanuni tələbləri yerinə yetirmək və ya hüquqi proseslərdə istifadə edilə biləcək məlumatları təmin etmək.

## Məlumatların paylaşılması

- Qanuni əsaslarla: Qüvvəyə minmiş məhkəmə qərarı və ya aidiyyəti dövlət orqanlarının sorğusu əsasında.
- Texniki tərəfdaşlarla: Saytın fəaliyyətinin təmin olunması üçün yalnız zəruri olan məlumatlar paylaşılır və bu tərəflər məlumatların məxfiliyini qorumağa borcludurlar.

## Məlumatların təhlükəsizliyi

- Şəxsi məlumatların qorunması üçün müasir texnoloji və təşkilati tədbirlər görülür. Lakin internet üzərindən məlumat ötürülməsinin tam təhlükəsizliyinə zəmanət verilə bilməz və istifadəçilər bu riski nəzərə almalıdırlar.

## “Cookies” fayllarının istifadəsi

- İnternet informasiya ehtiyatında “cookies” faylları texnologiyasından istifadə olunur. “Cookies” fayllar internet informasiya ehtiyatının düzgün işləməsi, istifadəçinin seçimlərinin yadda saxlanılması və təhlil məqsədilə istifadə edilir. İstifadəçi istədikdə brauzer ayarlarından “cookies” fayllarının istifadəsini məhdudlaşdıra və ya sözügedən faylları silə bilər.

## İstifadəçi hüquqları

- Təqdim etdiyi şəxsi məlumatlarına çıxış tələb etmək;

- Təqdim etdiyi məlumatlarda düzəliş edə bilmək;
- Təqdim etdiyi məlumatların silinməsini tələb etmək (qanuni məhdudiyyətlər istisna olmaqla);
- Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq məlumatların istifadəsinə etiraz etmək.
- Bu hüquqlardan istifadə etmək üçün bizimlə əlaqə saxlaya bilərsiniz: office@icta.az

**Siyasətə dəyişikliklər**

- Siyasətə edilən dəyişikliklər bu səhifədə yerləşdiriləcəkdir. İstifadəçilər bu səhifəni mütəmadi izləməklə yeniliklərdən xəbərdar ola bilərlər.

**Yekun müddəalar**

- Agentlik fəaliyyətində Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyini rəhbər tutur.